# Müdrikliyin ən yüksək zirvəsi

*Heydər Əliyev Azərbaycan xalqının çətin dönəmlərdən çıxmasında müstəsna rol oynayıb, müdrik rəhbərlik bacarığı ilə adını tariximizə xilaskar lider kimi yazdırıb. Əvəzsiz lider yalnız siyasi rəhbər deyil, həm də millətin birliyini, dövlətçiliyini qoruyan və gələcəyə yol açan bir strateqdir. Onun liderlik xüsusiyyətlərinin təməlində uzaqgörənlik, iradə, milli maraqlara sarsılmaz bağlılıq və xalqa dərin sevgi dayanır. Heydər Əliyev hər zaman xalqın yanında olmuş, milli-mənəvi dəyərlərin qorunmasını əsas prioritet müəyyən etmişdir. Dövlətin müstəqilliyini təmin etmək, Azərbaycanın beynəlxalq aləmdə mövqeyini möhkəmləndirmək üçün qətiyyətli addımlar atmışdır.*

"Əsrin müqaviləsi" kimi tarixi layihələrə imza ataraq, ölkənin enerji sektorunda inqilabi dəyişikliklərə yol açmışdır. Onun qəbul etdiyi strateji qərarlar Azərbaycanı qlobal arenada etibarlı tərəfdaşa çevirmişdir. Ulu öndərin idarəçilik fəlsəfəsi iqtisadi, siyasi, humanitar sahədə özünü göstərmişdir. Təhsil, elm və mədəniyyət inkişafı həyata keçirilən islahatlar onun gələcək nəsillərə olan qayğısını əks etdirir. Heydər Əliyevin siyasətində uşaqlar və gənclər xüsusi yer tutmuşdur. Onun dövlət idarəçiliyində əsas istiqamətlərindən biri sağlam və təhsilli yeni nəslin formalaşdırılması idi. Ulu öndər bildirirdi ki, cəmiyyətin gələcəyi uşaqlara və gənclərə göstərilən diqqət və qayğıdan asılıdır. Ulu öndər gəncləri ölkənin intellektual potensialı hesab edərək onların yüksək səviyyəli təhsil almasına xüsusi diqqət yetirmişdir. 1996-cı ildə "Gənclər və İdman Nazirliyi"nin yaradılması ümummilli liderin gənclər siyasətinə verdiyi önəmin göstəricisidir. Ümummilli lider deyirdi: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".

Ümummilli liderin təşəbbüsü ilə 1994-cü ildə "Uşaq Hüquqları Konvensiyası"nın ratifikasiya olunması, Azərbaycanın uşaqların hüquqlarını qorumaq və onların rifahını yüksəltmək istiqamətində beynəlxalq öhdəliklər götürdüyünü nümayiş etdirdi. "Uşaq Fondu"nun yaradılması sosial cəhətdən həssas qruplardan olan uşaqlara dəstək göstərilməsi üçün vacib addım idi. Gənclərin intellektual və fiziki inkişafına yönələn qərarlar sırasında idmanın və təhsilin inkişafına verilən xüsusi önəm diqqətəlayiqdir. Ulu öndər gənclərin xaricdə təhsil alması, qloballaşan dünyada rəqabət qabiliyyətli kadrlar yetişməsi üçün şərait yaratdı. 1997-ci ilin 2 fevralında "Azərbaycan Gəncləri Günü"nün təsis edilməsi də gənclərə olan yüksək diqqətin göstəricisidir. Heydər Əliyevin rəhbərliyi ilə mədəniyyət, dil və tarix biliklərin təbliği üçün xüsusi layihələrə start verilmiş, təhsil proqramları bu istiqamətdə zənginləşdirilmişdir. Eyni zamanda gənclərin dövlət quruculuğunda fəal iştiraka, qərar qəbul etmə proseslərinə cəlb edilməsi gələcəyə olan inamın təcəssümü idi. Əvəzolunmaz lider inanırdı ki, güclü dövlət yalnız təhsilli, sağlam və vətənpərvər gənclərlə mümkün ola bilər.

Heydər Əliyev Azərbaycanın müasir tarixində dahi lider və müdrik siyasətçi kimi yadda qalmışdır. Ümummilli liderin siyasi görüşləri və beynəlxalq arenada səsləndirdiyi fikirlər ölkəmizin maraqlarının müdafiəsinə, qlobal sülhün və əməkdaşlığın təşviqinə xidmət edirdi. Dahi şəxsiyyət həmişə qeyd edirdi: "Siyasi dialoq münaqişələrin həllinin yeganə yoludur. Güc tətbiqi müvəqqəti nəticələr versə də davamlı sülh yalnız anlaşma və əməkdaşlıq üzərində qurula bilər".

Unudulmaz lider qonşu dövlətlərlə dostluq əlaqələrini inkişaf etdirməyə xüsusi önəm verirdi. Xüsusilə, Türkiyə ilə "bir millət, iki dövlət" prinsipinə əsaslanan münasibətlərin dərinləşdirilməsi onun uzaqgörən siyasətinin nəticəsidir. Heydər Əliyev bu barədə deyirdi: "Türkiyə ilə Azərbaycanın dostluğu və qardaşlığı sarsılmazdır. Bu münasibət bizim regionun gələcək rifahının təminatıdır".

Heydər Əliyevin liderliyi ilə Azərbaycan müstəqillik yolunda böyük çətinlikləri dəf etmiş, keçmiş Qarabağ münaqişəsinin həllinə beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmişdir. O, bu barədə demişdir: "Münaqişələrin həllində əsas prinsip ədalətdir. Biz heç kimin haqqını tapdamırıq, lakin öz haqqımızı da heç kimə verməyəcəyik".

BMT, ATƏT və digər beynəlxalq təşkilatlarda çıxışları zamanı Heydər Əliyev Azərbaycanın haqq səsini dünyaya çatdırmış, ölkəmizin beynəlxalq hüququn prinsiplərinə uyğun siyasət yürütdüyünü vurğulamışdır.

Heydər Əliyevin müdrikliyi, qətiyyəti və dərin təhlil qabiliyyəti onun beynəlxalq görüşlərdə həmişə üstün mövqe tutmasını təmin etmiş, həm Azərbaycanın, həm də bütövlükdə regionun sabitliyi və inkişafı üçün səmərəli həll yolları təklif etmişdir. Ulu öndər tarix yazan lider idi.

Müasir dövlətçiliyimizin banisi, yüksək insani dəyərləri ilə xalqın qəlbində xüsusi yer tutmuş şəxsiyyətdir. Sadəlik, dostluq münasibətləri və ailəyə bağlılıq kimi dəyərlər həyat fəlsəfəsinin əsasını təşkil edirdi. Ulu öndər deyirdi: "Lider xalqdan uzaq qala bilməz, çünki liderin gücü məhz xalqın sevgisi və dəstəyindən qaynaqlanır".

Heydər Əliyev xalqına güclü və müstəqil bir dövlət gələcəyə işıq tutan ideyalar və prinsiplər miras qoymuşdur. Bu irsin layiqli davamçısı, dövlət başçımız İlham Əliyevdir. Ali Baş Komandan ulu öndərin müəyyən etdiyi strateji kursu uğurla davam etdirərək Azərbaycanı beynəlxalq arenada güclü, regionda lider dövlətə çevirmişdir. Vətən müharibəsi zamanı dövlət başçısı ata vəsiyyətini yerinə yetirdi, xalqın arzusunu gerçəkləşdirdi və 30 il işğalda qalan torpaqlarımızı azad etdi. Prezident İlham Əliyev Azərbaycan Ordusunun qələbəsini təmin etməklə həm də dünya ictimaiyyətinə ölkəmizin ədalətli mövqeyini sübut etdi.

Bu gün İlham Əliyev Ulu Öndərin arzusunda olduğu güclü və firavan Azərbaycanla gələcəyə doğru inamla irəliləyir. Dövlət başçısının qətiyyəti, uzaqgörən siyasəti və liderliyi sayəsində Azərbaycan xalqı tarixinin ən böyük uğurlarını yaşayır. Bu, Heydər Əliyev irsinin davam etdiyinin əyani sübutudur.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**